# Ula Bozqurd

Rövşən Xasayoğlu

Dedin, Haray, haray - Türkəm,
Nə Farsam, nədə ki, Əcəm.
Yad əllərə keçib ölkəm.
Ula bozqurd qəlsin səsin,
Parçalansın dar qəfəsin.

Aləmə salmısan haray,
Sinirlərin dartılmış yay.
Türkəm dedin, sustu saray,
Ula bozqurd qəlsin səsin,
Tehran qorxudan titrəsin.

Türkəm, hanı şirin dilim?
Farsca məktəb, farsca elm,
Türk dilimdir Türk kimliyim.
Ula bozqurd qəlsin səsin,
Ana dilim, öz nəfəsim

Dilim Türkdür, Farsa dönməz,
Qibləm Məkkə, tərsə dönməz,
Vətən sevgim heç vaxt sönməz,
Ula bozqurd qəlsin səsin,
Fars bu səsdən alsın dərsin.

Ərənləri salın yâda,
Canım yurda olsun fəda,
Zəncanda, Xoyda, Culfada -
Ula bozqurd qəlsin səsin,
Ayağa qalxsın Təbrizim.

Çilə çəkir Türk ulusum,
Nə vaxtacan zülmə susum?
Torpağımda qanmı kusum?
Ula bozqurd qəlsin səsin,
Rəvamı Türk haray çəksin.

Yetər, artıq Fars zülümü,
Hər kəs duysun bu hökümü
Ya hürr yaşa, ya seç ölmü,
Ula bozqurd qəlsin səsin,
Qırın hürriyət tələsin

Tel qəfəsi qırsın Araz,
Aramızdan çəkilsin Fars,
Türk, bütövlük dastanı yaz,
Ula bozqurd gəlsin səsin,
Silin o taylı kəlməsin.

Bu torpaqlar Tanrı payı,
Bayrağım ulduzlu, aylı,
Türk itirməz haqqı-sayı,
Ula bozqurd qəlsin səsin,
Fars tanısın yurd yiyəsin!

Türkə arxa-dayaq Turan,
Sən oğulsan, o da anan,
Nə istəyir səndən İran?
Ula bozqurd qəlsin səsin,
Düşmənlərin lərzə gəlsin!

Ula bozqurd, durma ula,
Türk səninlə çıxıb yola,
Bozqurda dağlardır qala,
Ula dünya duysun səsi,
Qurd Türkə Tanrı töhvəsi!